# Vüqarımızı, qürurumuzu qaytaran şəhid Sübhan

44 günlük Vətən müharibəsində düşmənə qarşı hünər göstərib adını şərəflə Azərbaycanın qəhrəmanlıq tarixinə yazan oğullardan biri də şəhid əsgər Sübhan



Rauf oğlu Həsənovundur. O, Masallı elində boya-başa çatmışdı. Yaxşı idmançı olan, uşaqlıqdan Vətənə ürəkdən bağlanan Sübhanın həqiqi hərbi xidməti Goranboy rayonunda keçir, doğma Azərbaycanı göz- bəbəyi kimi qoruyur. Düşməndən ilk qisasını isə Tovuz döyüşlərində alır.

Azərbaycan Ordusunun əsgəri olan Sübhan sentyabrın 27-də 30 il erməni tapdağında qalan Qarabağ torpaqları uğrunda müharibə başlanan günü döyüşə atılır. Min əzablı-əziyyətli yollar keçir. Füzuli, Ağdərə, Suqovuşan istiqamətində gedən döyüşlərdə sözün əsl mənasında tarix yazır. Vətən sevdalısı Suqovuşan qəsəbəsi istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalır. Ölümündən sonra igidliyə və vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Sübhan Rauf oğlu Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilir.

Bu günlər Masallı şəhərində Vətən şəhidin il mərasimi çox qürurlu, möhtəşəm təşkil olunmuşdu. Tədbirdə Masallı Rayon İcra Hakimiyyətinin başçısı cənab Şahin Məmmədov və aparatı, Milli Məclisin deputatı Məşhur Məmmədov, hüquq-mühafizə orqanlarının, müəssisə və təşkilat rəhbərləri, SHXÇDX Masallı rayon şöbəsinin əməkdaşları, YAP Masallı Rayon Təşkilatının fəalları, şəhid ailələri, ağsaqqallar, müharibədə can qoyub qazi olanlar, şəhər sakinləri, Bakı, Gəncə, Mingəçevir şəhərindən, Kürdəmir, Ağcabədi, Lerik, Yardımlı rayonlardan gələn qonaqlar iştirak edirdilər. Əvvəlcə şəhid çavuş Sübhanın xatirəsi böyük ehtiramla anıldı, məzarı üstə güllər qoyuldu və daim o, ürəklərdə yaşayacağı bildirildi.

İcra başçısı Şahin Məmmədov çıxış edərək dedi:- Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda Şanlı Ordumuzun qalib gəldiyi 44 günlük Vətən müharibəsində yanımızda olan, bizə dost, dəstək ölkələri ürəkdən alqışlayıram. Sonra Bütün şəhidlərin ruhu qarşısında baş əyirəm. Sübhan balamın il mərasimində hər bir şəhid anasının alnından öpürəm. Sübhanlar bizə Zəfər Bayramını yaşatdılar. Masallıda bütün şəhid ailələri bir məğrurluq nümayiş etdilər. Gəncləri döyüşə göndərəndə deyirdim ki, sizi ölməyə yox, öldürməyə göndəririk. Vətən torpaqlarını alın, sağsalamat geri qayıdın. 3 minə yaxın şəhid verdik. Masallıdan İkinci Qarabağ müharibəsində 62 şəhidimiz oldu. Mən şəhid ailələrinə təşəkkür edirəm. Onlar özlərini əsl vətənpərvər kimi aparırlar. Bu gün Sübhanın ruhu



bizimlədir. Sübhanlar bizə vüqarımızı və qürurumuzu qaytardılar. Sübhan kimi gənclərlə hər zaman qurur duyacağıq! Sübhan və adını çəkmədiyim cəbhə yoldaşların vətənpərvərliyi sayəsində Vətən torpaqları Ermənistanın işğaldan azad olunub, xalqımızın 30 illik həsrətinə son qoyulub. Azərbaycanın 44 günlük Vətən müharibəsi dünya tarixinə yazılıb. Biz şəhidləri unutsaq-unudularıq. Həmişə onlara borcluyuq...

Şəhid əsgər Sübhan Həsənovun ailəsi, şəxsən atası Rauf Həsənov, şəhər camaatı, müharibə iştirakçıları hər zaman onlara göstərilən diqqət və qayğıya görə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Masallı Rayon İcra Hakimiyyətinin başçısına dərin minnətdarlıq etdilər.

**Zəfər Orucoğlu, Azərbaycan Jurnalistlər Birliyinin üzvü**